# Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı

**№ 182** **Bakı şəhəri, 28 aprel 2017-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 24 iyun tarixli 117 nömrəli qərarı ilə təsdiq edilmiş "Bakalavriat təhsilinin məzmunu və təşkili Qaydaları"nda dəyişiklik edilməsi barədə**

"Elm haqqında" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 271-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 9 avqust tarixli 1009 nömrəli Fərmanının 1.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 24 iyun tarixli 117 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 561; 2012, №12, maddə 1345; 2014, № 4, maddə 451; 2016, № 12, maddə 2239) ilə təsdiq edilmiş "Bakalavriat təhsilinin məzmunu və təşkili Qaydaları"nın 1.6-cı bəndinin üçüncü abzasının birinci cümləsində "elmi-tədqiqat" sözləri "elmi müəssisə və təşkilatlarda" sözləri ilə əvəz edilsin.

***Artur RASİ-ZADƏ***
***Azərbaycan Respublikasının***
***Baş naziri***